# Doqquz il bundan öncə Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi



***Doqquz il öncə Azərbaycan beynəlxalq arenada böyük uğura imza atdı. Belə ki, 24 oktyabr 2011-ci ildə ölkəmiz Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının (BMT TŞ) qeyri-daimi üzvü seçildi. Xalqımızın milli tarixinə əlamətdar və qürur doğuran hadisələrdən biri kimi daxil olmuş bu üzvlük prosesi müxtəlif mərhələlərdən və digər dövlətlərlə kəskin rəqabət şəraitində keçmişdi. Xatırladaq ki, BMT-yə üzv olan 193 ölkədən 155-i Azərbaycana səs vermişdi. Ölkəmizin bu tarixi nailiyyəti, ilk növbədə, Prezident İlham Əliyevin davamlı, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdu. Bu uğurlu xarici siyasət indi də davam edir və Azərbaycanın milli maraqlarının yüksək səviyyədə təmin olunmasına şərait yaradır.***

Məlum olduğu kimi, Azərbaycan həm ikitərəfli, həm də çoxtərəfli formatda fəal və dinamik diplomatiya aparır. Bu, həm beynəlxalq təşkilatların işində iştirak etməkdə, həm müxtəlif dövlətlərlə ikitərəfli əlaqələrin möhkəmlənməsində və inkişafında, həm də, məsələn, İslam Əməkdaşlıq Təşkilatı kimi mühüm təşkilatlarda üzvlükdə ifadə olunur. Xatırladaq ki, 2011-ci ilin may ayında Azərbaycan Qoşulmama Hərəkatına üzv olmuşdu və sadaladığımız bütün amillər ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə müsbət təsir göstərmişdi.

Məlumdur ki, qeyri-daimi üzvlərin seçilməsi zamanı seçkiyə, beynəlxalq sülhə və təhlükəsizliyə töhfə, BMT-nin digər vəzifələrinin həyata keçirilməsi prosesində fəal iştirak etmək imkanı, ölkənin hazırkı beynəlxalq münasibətlər sistemində yeri və rolu kimi mühüm amillər nəzərə alınır. Hamıya yaxşı məlumdur ki, Azərbaycan beynəlxalq humanitar missiyalarda yaxından iştirak edir, bir sıra dövlətlərə yardım göstərir. Çünki Azərbaycan müxtəlif xalqların üzləşdiyi fəlakətlərə heç vaxt biganə qalmır. Zaman göstərdi ki, Azərbaycan regional və qlobal proseslərə laqeyd qalmır, onlarda fəal şəkildə iştirak edir və ümumiyyətlə, özünü bütün bunların tərkib hissəsi hesab edir. Azərbaycanın Təhlükəsizlik Şurasına üzv seçilməsi bir daha sübut etmişdi ki, ölkəmiz beynəlxalq aləmdə göstərilən parametrlərə uyğun və fəal şəkildə dəstəklənən siyasət yeridir.

Xüsusilə qeyd etmək lazımdır ki, BMT-də səsvermənin yekunu Azərbaycan üçün yalnız nəticəsi ilə deyil, həm də mübarizənin gedişi ilə gözlənilməz olmuşdu. Belə ki, BMT-nin, necə deyərlər, ənənəvi "ssenarisi" səsvermənin ilk turundan etibarən pozulmuşdu. Daha dəqiq desək, səsvermədə Azərbaycan favorit sayılan Macarıstan və Sloveniyadan daha çox dəstək almışdı. Azərbaycanın səslərin 25 faizindən çoxunu qazana bilməyəcəyini güman edən bəzi xarici analitiklərin proqnozlarının əksinə olaraq, ölkəmiz iki dəfə çox səs qazanmışdı. Nəticədə Macarıstan ilk səsvermədən sonra mübarizəni dayandırmış, Azərbaycan və Sloveniya isə mübarizəni davam etdirmişdilər. Mütəxəssislərin sözlərinə görə, bəzi xarici siyasətçilər, şübhəsiz ki, Azərbaycanın artan beynəlxalq nüfuzunu, diplomatiyasının beynəlxalq dəstəyi öz xeyrinə səfərbər etmək məqsədi ilə gördüyü böyük təşkilatçılıq və siyasi işləri lazımınca qiymətləndirə bilməmişdilər. Onlar gözləmirdilər ki, Azərbaycan bu cür qətiyyət nümayiş etdirəcək və rəsmi Bakı yalnız səsvermədə iştirak və irəli sürülməsi faktından razı qalacaq. Seçkilərin nəticələri onların yanıldıqlarını göstərmişdi. Azərbaycan nəinki müsəlman dövlətlərinin, həm də MDB-nin (Ermənistan istisna olmaqla) və Qoşulmama Hərəkatına daxil olan bir çox ölkələrin dəstəyini qazanmışdı. Şübhəsiz ki, BMT-dəki kiçik ölkələrin daimi nümayəndələrinin Azərbaycana tanışlıq səfəri, diplomatlarımızın istər BMT-də, istərsə də diplomatik nümayəndəliklərimizin olduğu dövlətlərdə konstruktiv və məqsədyönlü işi də müsbət rol oynamışdı.

Əlbəttə, Azərbaycanın BMT TŞ-yə qeyri-daimi üzvü seçilməsi çox məsuliyyətli vəzifə olmuşdu. Belə ki, dünya birliyi ölkəmizə böyük etimad göstərmişdi. BMT Təhlükəsizlik Şurasına üzv seçilmək dünyada gedən siyasi proseslərlə bağlı müəyyənedici qərarların qəbul edilməsində bilavasitə iştirak etmək demək idi. Təbii ki, bu, Azərbaycanın beynəlxalq imicinə və nüfuzuna müsbət təsir göstərmiş və bununla yanaşı, dövlətimizin müxtəlif ölkələrlə ikitərəfli əlaqələrinin inkişaf etdirilməsi prosesinə də öz töhfəsini vermişdi. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının iclasında qeyri-daimi üzv kimi ilk dəfə 4 yanvar 2012-ci ildə iştirak etmiş və mayın 1-dən etibarən BMT TŞ-yə sədrlik etmişdi. Xüsusi fəxrlə qeyd etmək lazımdır ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına daxil olan Cənubi Qafqaz və Orta Asiya ölkələrindən ilk nümayəndə olmuşdu. Qeyd etmək yerinə düşər ki, Ermənistan da öz namizədliyini irəli sürmüşdü, ancaq işğalçı Ermənistan bu məsələdə Azərbaycanla rəqabətin boş olduğunu ilk gündən başa düşmüş və buna görə də öz namizədliyini geri götürmüşdü. Erməni diplomatiyası iflasa uğramış və nəticədə rəsmi İrəvan ölkə ictimaiyyəti tərəfindən qınaq obyektinə çevrilmişdi. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi Ermənistanın ciddi narahatlığına səbəb olmuşdu.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinin siyasi əhəmiyyəti də ondan ibarət olmuşdu ki, ölkənin milli maraqlarının qlobal səviyyədə təmin edilməsi istiqamətində intensiv səylər göstərilmiş, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü şuranın iclaslarında müzakirə edilmiş və münaqişə ilə bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdı. Təsadüfi deyil ki, politoloqlar Azərbaycanın BMT TŞ-yə üzv seçilməsini gənc dövlətin beynəlxalq nüfuzunun artması və qəbul edilməsinin göstəricisi kimi qiymətləndirmişdilər. Prezident İlham Əliyev səsvermənin nəticəsindən dərhal sonra xalqı rəsmi bəyanatla təbrik etmiş və ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə baş verdiyini bildirmişdi. BMT Təhlükəsizlik Şurasının dünyanın ən mötəbər qurumu olduğunu bildirən ölkə başçısı Azərbaycanın müstəqil dövlət kimi artıq bu qurumun üzvü olmasını çox böyük qələbə adlandırmışdı. Prezident İlham Əliyev bildirmişdi ki, 155 ölkənin Azərbaycanı dəstəkləməsi ölkəmizə inamın, etimadın göstəricisidir: "Müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsi, doğrudan da, tarixi nailiyyətdir. Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu, Azərbaycan xalqının və dövlətinin qələbəsidir".

Tanınmış siyasi şərhçilər BMT divarları arasında aparılan səsverməda qələbəni Azərbaycan diplomatiyasının böyük nailiyyəti kimi qiymətləndirmişdilər. Politoloqların sözlərinə görə, sərt mübarizədə Azərbaycan diplomatiyası yeni inkişaf səviyyəsinə yüksəldiyini nümayiş etdirmişdi. Azərbaycanın səsvermə zamanı ikinci raundda çıxış etməsi, digər namizəd ölkə Sloveniyanın qabaqlaması ölkəmizin beynəlxalq nüfuzunun və təşkilati dəstək işi sahəsində kifayət qədər böyük təcrübənin olmasının göstəricisi kimi qiymətləndirilmişdi.

Siyasi şərhçilərin sözlərinə görə, BMT TŞ-yə üzvlük böyük siyasətə qoşulmaqla yanaşı, həm də üstünlüklərin qazanılması deməkdir. Mütəxəssislər birmənalı şəkildə bildirmişdilər ki, Azərbaycanın belə mötəbər vəzifəyə seçilməsi rəsmi Bakının öz siyasətini düzgün qurmağı bacardığının nəticəsidir.

Artıq heç kimə sirr deyil ki, Azərbaycanın son illər ərzində əldə etdiyi nailiyyətlər ölkəmizin dünya arenasında imicini xeyli artırmışdır. Dünyanın ən mötəbər beynəlxalq qurumları ilə sıx əməkdaşlıq həyata keçirilir. Azərbaycan, həmçinin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində etibarlı tərəfdaşdır və beynəlxalq antiterror koalisiyasının fəal iştirakçısıdır. Bütün dünyada beynəlxalq antiterror çağırışlarına qoşulan ilk ölkələrdən biri də məhz Azərbaycan olmuşdur. Bizim hərbçilərimiz NATO-nun Əfqanıstanda, İraqda sülhməramlıların sırasında xidmət etmişlər.

Bir sözlə, bütün çətinliklərə və ədalətsizliklərə baxmayaraq, Azərbaycan dünyada müstəqil xarici siyasət aparan ölkə kimi tanınır. Hazırda dünyada böyük nüfuza və güclü beynəlxalq mövqeyə malik, böyük enerji layihələrinin müəllifi və iştirakçısı olan, ölkədə siyasi sabitliyi və sosial-iqtisadi rifahı təmin edən Azərbaycan öz yolu ilə uğurla addımlayır. Bütün bunların təməlində, şübhəsiz ki, xalqın və hakimiyyətin vəhdəti dayanır. Ən əsası, belə fəal xarici siyasətin nəticəsidir ki, bu gün işğaldan azadetmə prosesinin aparıldığı vaxtda beynəlxalq aləm Ermənistana birmənalı dəstək nümayiş etdirmir, Azərbaycanın haqlı mübarizəsinə anlayışlıqla yanaşır. Bu yanaşmanın formalaşması isə, əlbəttə ki, Azərbaycanın xarici siyasətinin reallıqlara uyğun aparıldığından və geosiyasi proseslərə adekvat yanaşmağı bacardığından xəbər verir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***